# Bənzərsiz tarixi şəxsiyyət

**Ümummilli lider Heydər Əliyev hər zaman birinci olmaq üçün yaranmışdı. Bu keyfiyyətlər ona fitrən verilmişdi. Onun liderik bacarığı, potensialı çalışdığı bütün işlərdə, tutduğu bütün vəzifələrdə özünü bariz şəkildə göstərmişdi. Heydər Əliyev sovet dövlətinin rəhbərliyində işləyəndə də onun liderlik qabiliyyəti hamıya məlum idi. Bu da danılmaz bir faktdır ki, üstündən çox illər ötəndən sonra da keçmiş SSRİ-nin müxtəlif bölgələrində sıravi işçidən rəhbər şəxslərədək — hər kəs onu böyük ehtiramlı anır. Məhz Heydər Əliyevin Kremldə, "Siyasi büro"da hamıdan üstün, bacarıqlı, işgüzar və istedadlı olması səbəbindən istefaya göndərdilər.**

1993-cü ilin yayında xalq kömək üçün ona üz tutanda Azərbaycan dövlətçiliyi də "olum, ya ölüm" sualı ilə üz-üzə idi. O, tarixi qərarını verdi, ölkəyə rəhbərliyə qayıtdı, sabitlik yaratdı. Rus imperiyasının caynağından yenicə qopmuş gənc respublikamızı inkişaf yoluna çıxardı. Onun dünya birliyində layiqli yer tutması üçün əlindən gələni etdi.

Azərbaycan ikinci dəfə müstəqillik qazandıqda təbii olaraq meydana çıxan çətinliklər həyatın bütün sahələrində olduğu kimi, təhsilə də öz mənfi təsirini göstərmişdi. Ulu öndərimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Ölkədə həyat yenidən öz axarına düşdü. İctimai-siyasi sabitlik bərpa olundu. Elmin, mədəniyyətin, təhsilin inkişafı intensiv xarakter almağa başladı. Təhsili milli tərəqqinin aparıcı amilinə çevirmək üçün bu sahəsində əsaslı və genişmiqyaslı islahatlara ehtiyac duyulurdu. Bu missiyanı da ulu öndərimiz Heydər Əliyev böyük cəsarətlə üzərinə götürdü.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan təhsilinin qarşısında yeni üfüqlər açıldı. Təhsil sistemi həm struktur, həm də məzmun etibarilə yeniləşməyə başladı. Ən əhəmiyyətlisi isə odur ki, təhsildəki islahatlar kortəbii, pərakəndə halda deyil, düşünülmüş vahid strategiya, konkret Dövlət Proqramı əsasında aparıldı. Milli ənənələrə, ümumbəşəri örnəklərə söykənən, dünya təhsil standartlarına cavab verən təhsil sistemi yaratmaq sahəsində Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində xeyli işlər görüldü. Əvvəlki mütərəqqi ənənələri yeni şəraitdə bərpa etməklə yanaşı, təhsil sistemi milli inkişafın və milli özünüdərkin tələblərinə uyğun yeniləşməyə başladı. 1999-cu il iyun ayının 15-də ulu öndər "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramının təsdiq edilməsi barədə" sərəncam imzaladı. 2000-ci il iyun ayının 13-də Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərmanı milli təhsilimizin çox mühüm problemlərinin həlli yolunda əsaslı addım idi. 2003-cü il fevralın 17-də ulu öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir təhsil avadanlıqları ilə təmin olunmasına dair Proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" sərəncam bu sahədə əsaslı dönüş yaradılmasına imkan verdi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə istedadlı uşaqlara dövlət himayəsinin nümunəsini öz əməli işi ilə sübuta yetirmişdir.

Ulu öndər Heydər Əliyevi həmişə düşündürən əsas məsələ qurub-yaratmaq, insanların güzəranını yaxşılaşdırmaq, təhlükəsiz və firavan həyat olmuşdur.

Dünya şöhrətli siyasətçi Heydər Əliyev öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan nəhəng şəxsiyyət idi. O, təkcə öz ömrünün müdriklik zirvəsində deyil, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. Bu zirvədə xalqın dünəni, bu günü və sabahı görünür. Ümummilli lider qarşıya çıxan bütün cəhdləri yararaq Azərbaycanı zamanın sərt və mürəkkəb dalğalarından qoruyub, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayanan Heydər Əliyev bir çox siyasi xadimlərin edə bilmədiyi və edə bilməyəcəyini gerçəkləşdirmiş, dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə zəmanəsinin tanınmış siyasi xadimləri arasında öz layiqli yerini tutmuşdur. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür.

Müstəqillik dövrünün ilk illərində Azərbaycanda bütün sahələrin dərin böhran içində olduğu, dövlət kimi mövcudluğu sual altında qaldığı 1993-cü ildə Heydər Əliyev şəxsiyyətinin tarixdə böyük rolunu bir daha təsdiq edərək xilaskar və qurucu lider missiyasını üzərinə götürüb xalqının taleyində dönüş yaratdı. Azərbaycana rəhbərliyinin ikinci dövründə ulu öndərin qarşısında mahiyyəti və xarakteri etibarı ilə daha böyük və mürəkkəb vəzifələr durmuşdu: başlanmaqda olan qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almaq, ölkədə siyasi sabitliyə, cəbhədə atəşkəsə nail olmaq və sairə. Bu qarşıdurma qan tökülmədən, siyasətçi müdrikliyi və diplomatik məharətilə həll edildi. Ölkədə demokratik dəyərlərə məxsus bazar münasibətlərinə əsaslanan genişmiqyaslı iqtisadi islahatların keçirildiyi vətəndaş cəmiyyəti quruculuğu başlandı və qısa müddətdə böyük nailiyyətlər əldə edildi.

Dünyanın tanınmış şəxsiyyətlərindən biri olan ulu öndərimizin böyük mənalı ömrü doğma xalqına və Vətəninə sədaqətlə xidmətin parlaq nümunəsidir. Böyük qürur hissi ilə fəxrlə "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımızın bu günü və sabahı ilə yaşamışam... Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət etmək olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" — söyləyən ulu öndərimizin sözün əsl mənasında xalqımızın müdrik və əvəzsiz lideri idi.

Heydər Əliyev ali məktəbdə öncə memarlıq, sonra isə tarixçi təhsili almışdır. Ancaq memar peşəsində işləmədi. Nə tarix müəllimi, nə də tarixçi olmadı. O, siyasətçi və dövlət xadimi kimi öz sözünü dedi. Müstəqil Azərbaycan dövlətinin memarı oldu. Ən yeni tariximizi öz əməlləri ilə yazdı. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Azərbaycan dövlətçiliyi Heydər Əliyevin şah əsəridir. Bu, sadəcə gəlişi-gözəl söz deyil, Heydər Əliyevin qurduğu dövlətin potensialına bələd olan bu dövlətlə hesablaşan dünya xalqlarının da etirafıdır. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orda Heydər Əliyevin fəaliyyətindən nəsə olmasın. Paytaxt Bakıda onlarca nəhəng tikili, iri sənaye müəssisələri, mədəniyyət, təhsil və səhiyyə ocaqları buna bariz nümunədir.

Heydər Əliyevin adını daşıyan möhtəşəm saray da vaxtı ilə onun rəhbərliyi altında tikilmişdir. Həmin sarayda Heydər Əliyev neçə-neçə böyük tədbirlər keçirmiş, nitqlər söyləmişdir. Bu saray nə qədər böyük təntənələrin şahidi olmuşdur. 1993-cü ildə hakimiyyətə qayıdandan sonra Azərbaycan Prezidenti kimi burada xalqa və dövlətə sədaqət andı içmişdi.

Heydər Əliyev 2003-cü il aprelin 21-də auditoriya qarşısında, Ali Baş Komandanın olduğu hərbçilər qarşısında sonuncu çıxışını da məhz bu sarayda etmişdi. Tale elə gətirdi ki, 2003-cü ilin 15 dekabrında xalq özünün böyük oğlunu məhz bu sarayda son mənzilə yola saldı.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb anlarda yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib. Bütün uğurlarımı təmin edib". Heydər Əliyev ömrü boyu xalqına arxalanmışdı. Dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi əzm, iradə, qətiyyət bu sözlərdəki həqiqəti dəfələrlə sübut edib. 1994-cü ilin oktyabrında respublikamızda çevriliş cəhdi baş verəndə Heydər Əliyevin xalqa müraciəti on minlərlə insanı gecə yarısı soyuq havada Prezident Sarayının qarşısına topladı. Xalq dahi liderə sevgisini bir daha sübut etdi. 2003-cü ilin 12 dekabrında uzaq Klivlenddən gələn kədərli xəbərin səhərisi yenə minlərlə insan həmin ünvana üz tutmuşdu. Bu dəfə onları Prezident Sarayının qarşısına heç kim çağırmamışdı. İnsanları həmin ünvana Heydər Əliyevə olan sevgi toplamışdı.

Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, onun siyasi-iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli intibah və inkişafının təməl sütunu olan ideyanın - Azərbaycançılıq məfkurəsinin banisi oldu. Çünki o, vətənpərvər lider olmaqla bərabər, eyni zamanda əsl azərbaycanlı idi. Heydər Əliyev Azərbaycanın türk dünyasında da özünəlayiq yer tutmasında böyük xidmətlər göstərmişdi. Ulu öndərimizin 2001-ci il Dünya Azərbaycanlılarının I Qurultayında söylədiyi bu tarixi fikir "Azərbaycançılıq öz milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlər sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" onun müdrik siyasəti idi.

Ulu öndərimizin barəsində hələ çox dəyərli fikirlər söylənəcək, müzakirələr ediləcək. Bundan sonra hələ uzun illər Azərbaycana rəhbərlik edəcək şəxslər Heydər Əliyev dühasından bəhrələcəklər. Bu gün o, aramızda olmasa da, onun yaratdığı dövlət yaşayır, inkişaf edir, güclənir, müasirləşir və bu siyasətin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Ədalət CAMALOVA,**
**Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin direktoru.**